UOT 37.

***Qüdsi Həsən oğlu Bayramov***
*fəlsəfə doktoru proqramı üzrə sabiq dissertant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# DÖVLƏT SİYASƏTİ KONTEKSTİNDƏ TƏLƏBƏLƏRİN SAĞLAM HƏYAT TƏRZİ RUHUNDA TƏRBİYƏSİ İŞİNİN TƏŞKİLİ

***Гудси Гасан оглу Байрамов***
*бывший диссертант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

# ВОСПИТАНИЕ СТУДЕНТОВ В ДУХЕ ЗДОРОВОГО ОБРАЗА ЖИЗНИ В КОНТЕКСТЕ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ

***Gudsi Hasan Bayramov***
*former doctoral student in the programm of a Ph.D of the*
*Institute of Education of the Republic of Azerbaijan*

# EDUCATİNG STUDENTS İN THE SPİRİT OF A HEALTHY LİFESTYLE İN THE CONTEXT OF PUBLİC POLİCY.

**Xülasə:**Məqalədə tələbələrin sağlam həyat tərzində təhsili ilə əlaqədar Azərbaycan Respublikasında dövlət tərəfindən qəbul olunmuş səhiyyə, təhsil sahəsində hüquqi sənədlərin əsası, bu istiqamətdə həyata keçirilən bütün sosial siyasət kontekstində tədbirlərin rolu və mənasından bəhs olunur.

Həmçinin məqalədə problemlə bağlı keçirilən geniş miqyaslı forumların, konfransların, kongreslərin və tədbirlərin əhəmiyyəti göstərilir.

***Açar sözlər:*** *universitet tələbələri, sağlam həyat tərzi, ictimai siyasət, sağlamlıq, təhsil və sosial məşğulluq.*

**Резюме:** В статье повествуется о роли и значении правовых нормативных документов, принятых в связи с воспитанием студентов в духе здорового образа жизни в контексте здравоохранения, образования, всей социальной политики, проводимой государством. Также указывается значимость крупномасштабных мероприятий-форумов, конференций, съездов в указанной деятельности.

***Ключевые слова:*** *студенты вузов, здоровый образ жизни, государственная политика, здравоохранение, образование и социальная занятость*

**Summary:** In the article the role and significance of legal normative documents adopted in connection with the education of students in the spirit of a healthy lifestyle and in context of health, education, all social policy carried out by the state of Restudied. The significance of large-scale events - forums, conferences, congresses - carried –out in this sphere is underlined also.

***Key words:*** *university students, healthy lifestyle, public policy, health, education and social employment.*

*Azərbaycanın ilbəil artan iqtisadi qüdrəti gənclərin fiziki, intellektual və mənəvi inkişafının təmin olunması, sosial problemlərinin həlli, innovativ ideya və təşəbbüslərinin dəstəklənməsi, bilik və bacarıqlarının üzə çıxarılması istiqamətində daha təsirli tədbirlər görməyə, irimiqyaslı proqram və layihələr reallaşdırmağa imkan verir.*

***İlham Əliyev***

Müasir olduğumuz dövrün müasir inkişaf mərhələsi ictimai həyatın bütün sahələrində elm və texnikanın inqilabi inkişafı ilə səciyyələnir. Elmi biliklər sürətlə artır, texnoloji proseslər bir-birini əvəz edir.

Elmin və ümumiyyətlə informasiyaların belə inqilabi sıçrayışla tərəqqisi müəyyən obyektiv ziddiyyətlərin yaranmasına gətirib çıxarmışdır. Belə ki, bir tərəfdən, elmin inkişaf sürəti təhsilalanların təbii inkişaf tempindən (hətta akselerasiya prosesi nəzərə alınsa da belə) yüksəkdir. Yəni elmin inkişafı ilə təhsilalanların təbii inkişafı arasında ziddiyyət yaranmışdır və bu ziddiyyət get-gedə artır, dərinləşir, gərginləşir və kəskinləşir. Təhsilalanların təbii inkişaf sürəti nəzərə alınmadan təhsilin məzmununun təkmilləşdirilməsi, çətinləşdirilməsi, mürəkkəbləşdirilməsi isə son nəticədə didaktogeniya və psixogeniyaya səbəb olur, təhsilalanların maddi (fiziki) və mənəvi rifah halına, səhhətinə, sağlamlığına ciddi mənfi təsir göstərir. Əslində isə prof. S.S. Xəlilovun qeyd etdiyi kimi, həqiqətən, "biliklərin öyrənilməsi insanın genetik əqli potensialına uyğun surətdə həyata keçirilməlidir" [5, 551].

Müasir dövrdə alimlər yaranmış ziddiyyəti, iqtisadçıların dili ilə desək, intensiv və ekstensiv üsullardan istifadə etmək, yəni həm təhsilin (xüsusilə ümumi təhsilin) müddətini artırmaq (keçən əsrdə uşaqlar 7 yaşından məktəbə daxil olub 10 il oxuyurdularsa, indi 6 yaşından təlimə başlayıb 11 il oxuyurlar, yəni əslində ümumi təhsilin müddəti 2 il artırılmışdır) və həm də onun məzmununu optimallaşdırmaq yolu ilə həll etməyə çalışırlar.

Digər tərəfdən, bəşəriyyətin üzləşdiyi bu müsbət və obyektiv ictimai hadisə ən azı hər 10 ildən bir təhsilin bütün pillələrində (məktəbəqədər, ümumtəhsil: ibtidai, əsas və orta; peşə-texniki təhsili, orta ixtisas təhsili, ali təhsil: bakalavriat, magistratura; doktorantura, ixtisasartırma və s.) onun məzmununu özündə əks etdirən sənədlərin – tədris planları, proqramları, dərsliklər, dərs vəsaitlərinin (kurikulumların) və s. dəyişdirilməsi, yeniləşdirilməsi və bu tərəqqiyə uyğunlaşdırılmasını tələb edir. Bu isə, öz növbəsində, həm külli miqdarda maddi vəsait, həm də xüsusi pedaqoji və metodiki çeviklik, ustalıq, məharət və qabiliyyət tələb edir. Lakin onu da qeyd etmək lazımdır ki, Birləşmiş Millətlər Təşkilatına üzv olan 200-ə yaxın dövlətin əksəriyyəti belə ictimai-iqtisadi imkana, maddi-texniki bazaya malik deyil. Belə vəziyyət gələcəkdə elm sahəsində də monopoliyaların yaranmasına, aparıcı elm sahələrinin müəyyən dövlətlərin əlində cəmləşməsinə ("beyin axını" da nəzərə alınmaqla) gətirib çıxara bilər.

Elmi biliklərin, informasiyanın artması ilə yanaşı, təbii olaraq əvvəllər mənimsənilən biliklərin köhnəlməsi prosesi baş verir. Məktəb illərində qazanılmış biliklərin bir çoxu müəyyən vaxtdan sonra köhnəlir, öz elmi və ictimai əhəmiyyətini itirir, "fiziki amortizasiyaya" məruz qalır. Buradan aydın olur ki, elmi məlumatların sürətlə artdığı indiki şəraitdə məktəb insana bütün həyatı boyu kifayət edəcək qədər biliklər vermək iqtidarında deyil. Buna görə də insanlar sürətlə inkişaf edən həyatdan geri qalmamaq üçün fasiləsiz olaraq bütün ömrü boyu, "beşikdən qəbrədək" (Məhəmməd peyğəmbər s.ə.s.) öz üzərilərində daim işləməli, çalışmalı, elmi bilikləri, ümumiyyətlə tarixi və mövcud təcrübəni müstəqil şəkildə əldə etmək, genişləndirmək və dərinləşdirmək bacarığına yiyələnməlidirlər.

Ulu öndər Heydər Əliyevin təbirincə desək, bizim məqsədimiz bütün Azərbaycan xalqının sağlamlığını-həm fiziki, həm mənəvi, əqli sağlamlığını təmin etməkdir. Beləliklə, təhsilin məzmununu təhsilalanların sağlamlığı hesabına ifrat genişləndirmək, zənginləşdirmək, mürəkkəbləşdirmək, çətinləşdirmək deyil, onlara özlərinin fərdi psixoloji-fizioloji xüsusiyyətlərinə, pedaqoji imkanlarına, şəxsi intellektual tempinə müvafiq müstəqil öyrənməyin yollarını öyrətmək lazımdır.

Ölkəmizin Avropa və dünya təhsil məkanına inteqrasiya etdiyi müasir dövrdə təhsilalanların yaradıcı fəallığı və müstəqilliyi məsələsi sadəcə didaktik göstəriş olmayıb, mühüm dövlət tələbinə çevrilmişdir. Məhz buna görə də Azərbaycan Respublikası ümumtəhsil məktəbinin Nümunəvi Əsasnaməsində başlıca vəzifələrindən biri "uşaqlara və gənclərə ictimai və elmi-texniki tərəqqinin müasir tələblərinə uyğun olan ümumi orta təhsil vermək, şagirdləri elmlərin əsaslarına dair dərin və möhkəm biliklərlə silahlandırmaq öz biliklərini təkmilləşdirməyə həvəs oyatmaq, bu bilikləri müstəqil surətdə daha da artırmaq və təcrübədə tətbiq etmək bacarığı tərbiyə etmək" kimi müəyyənləşdirilmişdir [4].

Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramında da təhsilalanların təlimdə fəallığı və müstəqilliyi mühüm və təxirəsalınmaz vəzifələrdən biri kimi qarşıya qoyulur [3].

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunun 4-cü maddəsində ölkəmizdə təhsilin əsas məqsədi kimi "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirilməsi, milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis kadrlar hazırlanması, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsinin və ixtisasın daim artırılmasının təmin edilməsi, təhsilalanların ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlanması" [1, 11-12] müəyyənləşdirilmişdir.

Təhsil sahəsində qabaqcıl Avropa və inkişaf etmiş dünya ölkələrinin mütərəqqi təcrübəsini öyrənmək, mənimsəmək, yerli və milli xüsusiyyətlər nəzərə alınmaqla ali təhsil müəssisələrində tətbiq etmək məqsədilə dünyəvi və sivil dövlət kimi, müstəqil Azərbaycan Respublikası 2005-ci il mayın 25-də Norveçin Berqen şəhərində keçirilən konfransda Bolonya bəyannaməsinə qoşuldu. Bununla da ölkəmiz təhsil sistemi, təhsil xidməti göstərilməsi sahəsində dünya təhsil bazarına daxil olmağa başladı.

Ölkə təhsilini durmadan qloballaşan dünya təhsil sisteminə, xüsusilə ali təhsil müəssisələrinin Avropa təhsil məkanına inteqrasiya prosesini və Bolonya Bəyannaməsinin tələblərinin yerinə yetirilməsini sürətləndirmək məqsədilə Təhsil Nazirliyi "Azərbaycan Respublikası ali təhsil sistemində 2006-2010-cu illərdə Bolonya Deklarasiyasının müddəalarının həyata keçirilməsi üçün tədbirlər planı" təsdiq etdi (16.01.2006), ölkə prezidenti isə "Azərbaycan Respublikası ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" (31.01.2008) sərəncam imzaladı. Həqiqət naminə qeyd etmək lazımdır ki, müstəqillik illərində ölkə iqtisadiyyatının inkişafı sayəsində Azərbaycan təhsilində müəyyən nailiyyətlər əldə olunmuş, yeni məktəblər tikilmiş, təmir olunmuş (sayını göstərmək), onların maddi-texniki bazası möhkəmləndirilmiş, təlimin yeni və müasir texnologiyaları ilə təchiz edilmişdir [7].

Lakin bütün bunlarla, bütövlükdə təhsil sistemində, o cümlədən ali təhsil sistemində qazanılan uğurlarla, əldə edilən nailiyyətlərlə yanaşı, ali təhsilin məzmununun mürəkkəbləşdirilməsi, (tədris planları, proqramları, dərsliklər və dərs vəsaitləri), durmadan təkmilləşdirilərək onun Avropa və dünya təhsil standartlarının tələblərinə uyğunlaşdırılması meyli tələbə gənclərin səhhətində, sağlamlığında müəyyən pozulmaların yaranmasına səbəb olmuşdur. Təhsilin məzmununa verilən tələblər proqressiv, təhsilalanların sağlamlığına göstərdiyi təsir isə reqressiv xarakter daşıyır. Yəni təhsilin keyfiyyəti ilə təhsilalanların və təhsilverənlərin sağlamlığı səviyyəsi arasında ziddiyyət yaranmış, təhsilin məzmununun durmadan təkmilləşdirilməsi, təhsilalanların səhhəti və sağlamlığının pisləşməsinə səbəb olmuşdur.

Beləliklə, müasir elmin sürətli inkişaf tempinə müvafiq olaraq təhsilin məzmununun təkmilləşdirilməsi təhsilalanların təbii inkişafını xeyli qabaqlayır və onların səhhətinə ciddi mənfi təsir göstərir. Bu deyilənlər ona dəlalət edir ki, təhsilin inkişaf etdirilməsi ilə yanaşı, təhsilalanların sağlamlığının təmin olunması və qorunması üçün hərtərəfli şərait yaradılmalı və buna dövlət tərəfindən xüsusi qayğı göstərilməlidir. Lakin, təəssüflər olsun ki, müasir ali təhsil sistemi və ali təhsil müəssisələrinin əksəriyyəti qədim yunanların "Sağlam bədəndə sağlam ruh olar" aforizminin əksinə olaraq "Sağlam ruhda sağlam bədən olar" ideyasına əsaslanır. Məhz bunun nəticəsidir ki, müasir təhsil sistemləri, o cümlədən Azərbaycan təhsil sistemi də ənənəvi olaraq təhsilalanların sağlamlığının təmin olunmasına, qorunmasına deyil, hər şeydən əvvəl və ilk növbədə onların təhsil səviyyəsinin yüksəldilməsinə yönəldilmişdir.

Müstəqil Azərbaycan Respublikasının 1992-ci ildə qəbul olunmuş birinci "Təhsil haqqında" Qanununa [2] müvafiq olaraq insanın sağlamlığı ("…möhkəm cansağlığına malik yurddaşlar yetişdirmək…") təhsil sahəsində dövlət siyasətinin prioritet istiqamətlərinə aid edilmişdi. Lakin Qanunun qüvvədə olduğu 17 il ərzində məlum oldu ki, bu müddəa deklarativ səciyyə daşımış, bütövlükdə təhsilalanların sağ-

lamlığı, sağlam həyat tərzi sahəsində ciddi dəyişikliklər, irəliləyişlər baş verməmişdir.

Digər tərəfdən, ümumiyyətlə müvafiq bölmələrində valeoloji və təhsilalanların və təhsilverənlərin mənəvi sağlamlığının qorunması məsələlərinin əks olunmasına baxmayaraq (məsələn, təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək; uşaq və gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək; təhsilalanların hüquqlarını müdafiə etmək; sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq; insan ləyaqətini və şərəfini alçaldan, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq; şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək; normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq və s.), təəssüflər olsun ki, yeni qəbul olunmuş Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunun (2009) üç maddədən ibarət məqsədinə təhsilalanların sağlamlığına aid bir müddəa belə daxil edilməmiş, ümumtəhsil məktəblərində, o cümlədən ali təhsil müəssisələrində (yalnız I və II kurslarda) fiziki tərbiyəyə ayrılan saatların miqdarında (həftədə cəmi 1-2 saat) dəyişiklik baş verməmişdir. Əvvəlki dövrlərdə olduğu kimi, yenə də "…geniş dünyagörüşünə malik olan, … nəzəri və praktik biliklərə yiyələnən…" [1, 12] yəni bilik, bacarıq və vərdişlərə malik şəxsiyyət yetişdirməyə, başqa sözlə, təhsilalanların sağlamlığının təmin olunması və qorunmasına deyil, əsasən onların zehni və intellektual inkişafına üstünlük verilmişdir.

Yeni fənlərarası elmi istiqamət kimi valeologiyanın təşəkkülü və inkişafı da məhz cəmiyyətin müasir tələbatı və göstərilən sosial-pedaqoji amillərlə şərtlənir.

"Valeo" ("valere") latın sözü olub, mənası sağlamlıq, sağlam olmaq, cansağlığı deməkdir. Lakin sağlamlıq dedikdə, yalnız xəstəliyin, yaxud fiziki qüsur və çatışmazlığın olmaması deyil, yuxarıda qeyd olunduğu kimi, həmçinin şəxsiyyətin cismani, intellektual, əxlaqi-psixoloji və mənəvi rifahında vəhdətin gözlənilməsi, təmin edilməsi başa düşülür.

Valeologiya elminin banisi rus alimi İ.İ. Brexman (20.11.1921– 9.07.1994) hesab edilir. O, bu elm haqqında ilk dəfə fikir söyləmiş və «valeologiya» terminini təklif etmişdir (1981). Lakin V.V. Kolbanovun [6, 144] rəyinə görə, İ.İ.Brexmanın ən böyük xidməti bu elmə ad verməsindən daha çox "sağlamlıq" məfhumunun özünə yeni mövqedən yanaşmağa cəhd göstərməsindən ibarət olmuşdur. Əvvəla, bir tərəfdən fərdi və ictimai sağlamlıq, digər tərəfdən fərdi xüsusiyyət və sağlam həyat tərzi (SHT) anlayışlarının bir sıra ümumi aspektləri dəqiqləşdirilmişdir. İkincisi, insanın sağlamlığına konstruktiv yanaşma ilk dəfə sağlamlığın formalaşdırılmasının prioritet strategiyasını müəyyənləşdirməyə imkan vermişdir. Üçüncüsü, bir çox elmlərin kəsişmə məkanında yaranmış valeologiya yalnız mənbələrinin zənginliyinə görə deyil, həm də elmi istiqaməti və tədqiqat üsullarının rəngarəngliyinə görə elmlərin kəsişmə nöqtəsinə çevrilmişdir. Belə bir cəhət və xüsusiyyət valeologiyanın təşəkkülü və inkişafını inteqrativ, yəni fəlsəfə, tibb, biologiya, psixologiya, pedoqogika, sosiologiya, iqtisadiyyat, ekologiya, fiziki tərbiyə və s. qovşağında yaranan, təşəkkül tapan və formalaşan elm sahəsi kimi müəyyənləşdirmişdir.

Valeologiya insanın özünün şəxsi sağlamlığının formalaşdırılması, təmin edilməsi və möhkəmləndirilməsinə cəlb edilməsi haqqında elm sahəsi kimi təşəkkül mərhələsindədir.

Beləliklə, valeologiyanın nəticələrinin ali, orta ixtisas və ümumtəhsil məktəblərinin nəzəriyyə və təcrübəsində inkişafına və tətbiqinə sövq edən obyektiv şərtlər, ilk növbədə, elmi-texniki və ictimai tərəqqinin insan orqanizminin fiziki və psixi inkişafını xeyli qabaqlamasından irəli gəlir.

Valeologiyanın məqsəd və vəzifələrinə uyğun olaraq sağlamlığın sosial aspektinin və sağlam həyat tərzinin böyük sosial əhəmiyyəti vardır. Belə ki, dövlətin mühüm funksiyası vətəndaşlarının qayğısına qalmaqdan ibarətdir.

Dövlətin sosial-iqtisadi siyasətini müəyyənləşdirən ümumbəşəri dəyərlər sırasında sağlamlığın prioriteti danılmazdır. Sağlamlıq maddi və mənəvi aspektləri olan universal fenomenə aiddir.

Dövlət üçün onun hər bir vətəndaşının sağlamlığı, yaxud xəstəliyi müəyyən konkret maddi ifadəyə malikdir. Hər şeydən öncə, o, xəstəyə xəstəlik vərəqəsinə görə pul verməli, onun müalicəsini ödəməlidir. Belə ki, xəstə maddi dəyərlər yaratmır, bu özünü milli ümumi məhsulun həcmində göstərir. Digər tərəfdən isə

öz sağlamlığına diqqət yetirməyən işçiyə nisbətən sağlamlığı ilə sistematik məşğul olan işçi dövlətə daha çox xeyir verir.

Sağlamlıq problemində sosial və şəxsi tədbirlər fərqləndirilir. Dövlət səviyyəsində sağlamlıq məsələlərinin həlli aşağıdakı bir qrup amillərin qeydiyyatını tələb edir:

Vətəndaşların sağlamlıq hüquqlarını təsdiq edən qanunverici və normativ hüquqi aktların işlənilib hazırlanmasını, onun həyata keçirilməsi mexanizmlərini tənzimləyən dövlət, təsərrüfat və sosial institutların olmasını tələb edir.

Sosial-iqtisadi tələb cəmiyyət üzvlərinin sağlamlığının qorunması və şəraitin təmin olunması ilə bağlı müxtəlif strukturların iştirak formasını və məsuliyyətini şərtləndirir.

Təhsil-tərbiyəvi – sağlamlığın həyati prioritetinin formalaşmasını, sağlamlıq və sağlam həyat tərzi üzrə təbliğat işinin aparılmasını, sağlamlığın əldə olunması metodlarına, vasitə və üsullarına nail olmanı təmin edir.

Ailə - insanın həyat tərzi üçün şəraitin yaradılmasını və eləcə də onun hər bir üzvünün sağlamlığa bələdliyini, sağlam həyat tərzinin maliyyələşdirilməsini tələb edir.

Tibbi - sağlamlıq vəziyyətinin diaqnostikasına istiqamətlənməni, sağlam həyat tərzi üzrə tövsiyələrin işlənilib hazırlanmasını, ilkin, ikinci və üçüncü profilaktikanın səmərəliliyini aktuallaşdırır.

Kulturoloji – əhalinin sağlamlıq mədəniyyəti ilə bağlı istirahətinin təşkilini, insanın sağlamlıq və sağlam həyat tərzinin qütbləşməsi məsələlərini, etnik, milli, dini və digər ideyalara, ənənələr, sağlamlığın təmin olunma mərasimini və s. təmin edir.

Hüquqi - sağlam həyat üçün təhlükəli olan cinayət hədələrindən şəxsiyyətin müdafiəsini və sosial təhlükəsizliyini təmin edir.

Ekoloji - sağlam həyat tərzi üçün ətraf mühitin vəziyyətini və təbiətdən rasional adekvat istifadəni şərtləndirir.

Şəxsi - hər bir konkret insanı öz sağlamlığını qorumağa, onu möhkəmləndirməyə və eləcə də şəxsiyyətin öz sağlamlığına görə məsuliyyət daşımasına meylləndirir.

Pedaqoq-valeoloq “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa (1), Azərbaycan respublikası ümumtəhsil məktəbinin Nümunəvi Əsasnaməsini (4), təhsilalanların hüquq və vəzifələri, təhsilverənlərin hüquq və vəzifələri, valideynlərin hüquq və vəzifələrini, insan hüquqları və azadlıqları Deklarasiyasını, uşaqların hüquqları haqqında Konvensiyanı, təhsilalanların təlim və tərbiyəsi məsələlərinə dair normativ sənədləri; əmək mühafizəsi sahəsində qanunvericiliyin əsaslarını, uşaq və yeniyetmələrin sağlamlığının mühafizəsinin hüquqi aktlarını bilməlidir[7]. Həmçinin təhsilverənlərin və təhsilalanların sağlam həyat tərzi problemləri üzrə fəaliyyətinin idarə edilməsi məsələləri, tədqiqat və təcrübi-eksperimental işlərin metodologiyası və metodikasına dair məlumatlar, məktəb və sosial gigiyenanın bölmələri üzrə tibbi biliklərin əsasları, tibbi reabilitasiya, bədbəxt hadisələr zamanı ilk yardım, yaş fiziologiyası və yaş diferensial və sosial psixologiya, həmçinin yaş, sosial, müqayisəli, müalicə pedaqogikası, etnopedaqogika, pedaqoji etika, ictimai rəyin sosiologiyası və s. diqqət mərkəzində olmalıdır. O, pedaqoji və valeoloji texnologiyalar, bədən tərbiyəsinin nəzəriyyəsi və metodikasının başlıca müddəalarını bilməlidir.

Biz sağlamlığın təmin olunması və qorunması sahəsində əldə rəhbər tutmaq üçün tövsiyə və göstərişlər hazırlayarkən məktəb valeoloqunun bütün bu sadalanan iş həcmini əhatə etməyə cəhd göstərməmişik, belə ki, bu vəzifələri yalnız müxtəlif mütəxəssislərin birgə səyi və gücü əsasında həyata keçirmək mümkündür.

**Problemin aktuallığı:** Məqalədə vurğulanan məsələlər aktuallığı ilə diqqət çəkir, araşdırılması əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi:** Məqalədə toxunulmuş problem praktik əhəmiyyətə malik olduğu kimi elmi cəhətdən də əsaslandırılıb.

**Problemin praktik əhəmiyyəti:** Məqalədə praktik olaraq məktəb valeoloqları, bu sahədə çalışan mütəxəssislər, müəllimlər və valideynlər və təhsilalanlar üçün praktik əhəmiyyətə malikdir.

**Ədəbiyyat:**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu, Bakı: Qanun, 2009.
2. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı: Öyrətmən, 1993.
3. Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı / Azərbaycan Respublikasının təhsil siyasəti (1998–2004). I kitab. Bakı: Çaşıoğlu, 2006.
4. Azərbaycan Respublikası ümumtəhsil məktəbinin Nümunəvi Əsasnaməsi. Bakı, 1994.
5. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universiteti, 2005.
6. Колбанов В.В. Валеология: основные понятия, термины и определения. СПб.: ДЕАН, 2001.
7. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010.

**E-mail:** qudsi_1983@mail.ru
**Rəyçi:** *ped.ü.elm.dok. prof.* **H.H. Əhmədov**
**Redaksiyaya daxil olub:** 10.11.2018